# BAKI MUSİQİ AKADEMİYASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ YENİ NƏŞRLƏR

Aygün QƏHRƏMANOVA

*100 il bundan qabaq Azərbaycan xalqının tarixinə bir qızıl səhifə yazılmış, Şərq-Qərb ənənələrinin qovuşuğunda Bakı Musiqi Akademiyası yaranmışdır. Məqalədə Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş elmi nəşrlər yer almışdır.*

***Açar sözlər:** Bakı Musiqi Akademiyası, 100 il, Üzeyir Hacıbəyli.*

Azərbaycan musiqi mədəniyyətinin və təhsilinin inkişafında əvəzsiz rol oynayan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 ili tamam olur. Respublikamızda ilk musiqi ali təhsil və elm ocağı olan Bakı Musiqi Akademiyası şərəfli bir ömür yaşamış, əhəmiyyətli tarixi yol keçmişdir. Sönməz bir məşəl kimi Azərbaycan musiqi təhsilini, elmini işıqlandırmış, qüdrətli təhsil məbədgahına çevrilmiş, öz elmi-intellektual potensialı və tədrisin yüksək keyfiyyəti ilə ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınaraq böyük nüfuz qazanmışdır.

Bakı Musiqi Akademiyasının zəngin tarixi Azərbaycan musiqi təhsilinin inkişafı tarixidir. Dahi Üzeyir Hacıbəylinin səyləri nəticəsində 26 avqust 1921-ci ildə yarandığı gündən indiyə qədər burada minlərlə yüksək ixtisaslı kadr hazırlanmışdır. Azərbaycan musiqi mədəniyyətinin gələcək korifeyləri məhz onun auditoriyalarında təhsil almış və fəaliyyət göstərmişlər.

100 il öncə 1921-ci ildə dahi Üzeyir bəy Konservatoriyanın təməlini qoymuş, onun təşkil edilməsi üçün ilk addımları atmışdır. Məhz Şərqdə ilk Konservatoriyanın yaranması onun yeni axtarışlarının nəticəsi olaraq musiqi təhsil ocağının vacibliyini dərk etməsi, professionallıq dərrakəsi və bu yolda apardığı müvəffəqiyyətli mübarizədən irəli gəlirdi.

Dahi bəstəkarın ömrünün son 30 ilini tamamilə bu yola həsr etdiyi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası hər cür çətinliyə sinə gələrək mətinləşmişdir. Yarandığı vaxtdan etibarən Azərbaycan musiqi mədəniyyətinin mərkəzinə çevrilən Bakı Musiqi Akademiyası zaman-zaman inkişaf edərək formalaşmış, yüzlərlə bəstəkar, ifaçı, musiqişünas, pedaqoq, öz peşəsinə, musiqi sənətinə sadiq şəxsiyyətlər yetişdirmişdir. Musiqi mədəniyyətinin bütün sahələrinə güclü təsir edərək milli-mənəvi dəyərlərə söykənən musiqi ənənələrini qorunub saxlanılmasında, dünya musiqi arenasına çıxmasında, istedadlı gənclərin formalaşmasında, ölkənin yaradıcı qüvvələrini birləşdirərək Azərbaycan musiqi sənətinin gələcəyi olan yeni istedadlı musiqiçilərin bir araya gəlməsində onun rolu əvəzsizdir.

Şərqin ilk musiqi təhsil ocağı bir əsrlik tarixə qədəm qoyur. Belə əlamətdar hadisələrin layiqincə qeyd olunmasının əsl əhəmiyyəti məhz bu gün üçün nə dərəcədə müasir olmasında, gərəkli olmasındadır.

Bakı Musiqi Akademiyasının yaranmasının 100 illiyi ilə əlaqədar genişmiqyaslı layihələr davam etdirilir. Həmçinin, Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş elmi nəşrlər də işıq üzü görməkdədir. Onlar arasında 100 illik yubileyi təntənə ilə qeyd olunan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının böyüklüyünü, Azərbaycan musiqi elminin, mədəniyyətinin və təhsilinin tarixi yolunu öz insani və yaradıcı taleyində əks etdirən görkəmli alimlərin, pedaqoqların, professorların elmi nəşrləri, musiqi elminin qiymətli abidələri yer almaqdadır. "Abidə" anlayışı bilavasitə keçmişlə bağlıdır, bu, keçmiş haqqında şahidlik edən və bununla da müasirlik üçün çox qiymətli olan bir anlayışdır. Burada hər bir abidə, öz əsasında elmi fikrin daşıyıcısı olaraq, öz dövrünün və öz xalqının təmsilçisidir.

"XX əsr Azərbaycan Musiqi Elminin Abidələri" silsiləsindən Üzeyir Hacıbəyli "Azərbaycan Xalq Musiqisinin Əsasları" elmi-fundamental əsərinin, elmi və publisistik məqalələrinin, Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğətinin" yeni nəşri ən çox tələb olan nəşrlərdən hesab edilərək işıq üzü görmüşdür.

Azərbaycanda musiqi quruculuğunun banisi, dahi bəstəkar, görkəmli musiqi xadimi, publisist, dramaturq, maarifçi, müəllim, alim Üzeyir Hacıbəylinin qələminə məxsus «Azərbaycan xalq musiqisinin əsasları» kitabı klassik ensiklopedik traktatlara əsaslanan nadir elmi tədqiqat əsəri olub, XX əsrin musiqili-ədəbi abidəsi kimi qiymətlidir. "Azərbaycan xalq musiqisinin əsasları" - Azərbaycan musiqisinin öyrənilməsinə həsr edilmiş ilk sanballı nəzəri əsərdir.

"Azərbaycan xalq musiqisinin əsasları" əsəri ilk dəfə 1945-ci ildə rus dilində çap olunmuşdur. İlk nəşrin redaktoru Üzeyir Hacıbəylinin ən çox dəyər verdiyi, sevimli tələbələrindən biri, görkəmli pianoçu və pedaqoq Kövkəb xanım Səfərəliyeva idi.

1950-ci ildə, Üzeyir bəyin vəfatından sonra "Azərbaycan xalq musiqisinin əsasları" əsərinin azərbaycan dilinə çevrilməsi və nəşrinin hazırlanması Ü.Hacıbəylinin digər bir tələbəsi, nəzəriyyə sahəsində bilavasitə onun yolunu davam etdirən Məmmədsaleh İsmayılova və bəstəkar Soltan Hacıbəyova həvalə olunur.

1952, 1957 və 1965-ci illərdə də "Azərbaycan xalq musiqisinin əsasları" təkrarən çap olunmuşdur. 1985-ci ildə isə Üzeyir Hacıbəylinin 100 illik yubileyinin beynəlxalq miqyasda qeyd olunması ilə əlaqədar "Azərbaycan xalq musiqisinin əsasları" azərbaycan, rus və ingilis dillərində işıq üzü görmüşdür. Sayca dördüncü olan bu nəşrin redaktoru musiqişünas-alim, Üzeyir bəyin tələbəsi Əminə Eldarova olmuşdur. Növbəti işıq üzü görmüş nəşr isə Üzeyir Hacıbəylinin 125 illiyinə həsr olunmuşdur. Bu layihənin rəhbəri Fərhad Bədəlbəyli, elmi redaktoru isə Tariyel Məmmədov olmuşdur.

Həmçinin "Musiqi Dünyası" jurnalının elektron nəşrlər mərkəzi tərəfindən "Azərbaycan xalq musiqisinin əsasları" veb-saytı (azərbaycan, rus və ingilis dillərində) yaradılmışdır.[1]

Ü.Hacıbəylinin «Azərbaycan xalq musiqisinin əsasları» əsəri müxtəlif illər ərzində bir neçə dəfə işıq üzü görsə də, hal-hazırda təqdim olunan kitabın yeni nəşri (2019) əvvəlkilərdən bir sıra cəhətlərilə fərqlənir. Yeni nəşrdə "Azərbaycan musiqi elminin abidələri" silsiləsindən Azərbaycanın dahi bəstəkarı və musiqişünas-alimi, pedaqoqu, dramaturqu və ictimai xadimi Üzeyir bəy Hacıbəylinin elmi irsi əhatə olunub. Burada Ü.Hacıbəylinin elmi yaradıcılığının və XX əsr Azərbaycan musiqi elminin şah əsəri olan "Azərbaycan xalq musiqisinin əsasları" elmi-fundamental əsəri, elmi və publisistik məqalələri öz əksini tapmışdır. Kitaba Ümumilli liderimiz Heydər Əliyevin, həmçinin görkəmli musiqi xadimlərimizin Üzeyir Hacıbəyliyə həsr olunmuş məruzə və məqalələri daxil edilmişdir ki, bu da Üzeyir bəyin XX əsr Azərbaycan musiqi mədəniyyətində tarixi rolunun dəyərləndirilməsinə və müasir dövrdə milli musiqimizin inkişafında əhəmiyyətinin daha dərindən qavranılmasına və qiymətləndirilməsinə istiqamət verir. Bu nəşr Azərbaycan ənənəvi musiqisinin və bəstəkar yaradıcılığının tədrisi və tədqiqi ilə məşğul olan peşəkar musiqiçilərə və bütün dünyada Azərbaycan musiqisi ilə maraqlananlara ünvanlanır.

Üzeyir bəy ənənələrinin davamçısı və həmkarı kimi görkəmli Azərbaycan bəstəkarı və dirijoru, musiqişünas və şərqşünas Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik lüğəti" (red. Əşrəf Abbasov) Azərbaycan musiqişünaslığında öz elmi-təcrübi əhəmiyyətini təsdiq etmiş qiymətli nəşrlərdən biridir. Bu kitabda ilk dəfə olaraq, Azərbaycan və xarici musiqi terminləri toplanmış, Orta əsrlər dövrünün musiqişünas-alimləri və XIX-XX əsrlərin görkəmli xanəndə və tarzənləri haqqında geniş məlumat verilmişdir. Ə.Bədəlbəylinin "İzahlı monoqrafik lüğəti" oxuculara bu qədər qiymətli məlumatı belə böyük həcmdə çatdıran ilk nüfuzlu mənbədir. Əsər musiqi elmində bir çox tədqiqatlara təkan vermiş və bu günə kimi öz dəyərini qoruyub saxlamışdır. Ə.Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti" 1969-cu ildə çap olunmuşdur. Bu gün təbii olaraq müasir dövrümüzdə kitabın yenidən nəşrinə ehtiyac yaranmışdır. Yeni nəşrdə dövrlə bağlı olaraq, ictimai və elmi fikrin dəyişməsini nəzərə alaraq, bir sıra redaktə işləri aparılmışdır.

İdeya müəllifi, tərtibçi və məsul redaktor Tariyel Məmmədov, Redaksiya heyəti Fərhad Şəmsi oğlu Bədəlbəyli (sədr), Rafael Hüseynov (elmi redaktor), Nərminə Quliyeva, Arif Məlikov, Ülviyyə İmanova, Şəhla Həsənova, Gülzar Mahmudova, Könül Nəsirova, Leyla Məmmədova ibarət olan bu dəyərli nümunələr, Azərbaycan musiqi elminin şah əsərləri Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasında çapa hazırlanmışdır.

Onu da qeyd etməliyik ki, Əfrasiyab Bədəlbəylinin 100 illiyi münasibətilə "Musiqi dünyası" jurnalının mütəxəssisləri tərəfindən hazırlanan Əfrasiyab Bədəlbəylinin həyat və yaradıcılığına həsr olunan sayt[2] və "İzahlı monoqrafik musiqi lüğəti" elektron kitabı[3] kimi fəaliyyətdədir.

Oxucuların diqqətinə təqdim olunan növbəti layihə Azərbaycan ifaçılıq sənəti tarixini işıqlandırmaq məqsədinə xidmət edən "Azərbaycan ifaçılıq sənəti: Tarixin səhifələri" iri həcmli kitabıdır. Azərbaycan ifaçılıq məktəbi görkəmli və nüfuzlu olub, ölkəmizin hüdudlarından kənarda da tanınmış istedadlı musiqiçilər nəsli yetirmişdir. Üç cilddən ibarət olan bu layihədə birinci cild - Fortepiano İfaçılığı Sənətinin Görkəmli Xadimləri, ikinci cild - Simli və Nəfəsli Alətlər İfaçılığı üzrə Görkəmli Xadimlər, üçüncü cild - Vokal və Dirijorluq Sənəti üzrə Görkəmli Xadimlər öz əksini tapmışdır. Milli ifaçılıq mədəniyyətimizin görkəmli xadimlərinin həyat və yaradıcılığını təsvir edən oçerklərdə Azərbaycan musiqi sənətinin təşəkkülü və inkişafı tarixinin mühüm məqamlarını izləmək olar. Bu layihə bizim milli mədəni irsimizin qorunmasına yönələrək, dahi Üzeyir bəy tərəfindən əsası qoyulmuş və onun istedadlı məsləkdaşları tərəfindən davam etdirilən zəngin yaradıcılıq ənənələrinin təbliğində böyük əhəmiyyət daşıyır.

Layihədə Üzeyir bəylə birlikdə peşəkar musiqi təhsilinin yaradılmasının kökündə dayanmış görkəmli musiqi ifaçılarının yaradıcılıq yolu işiqlandırılmışdır. Həmçinin, XX əsrin ikinci yarısında ifaçılıq və pedaqoji fəaliyyətlə məşğul olan musiqiçilər haqqında məqalələr də daxil edilmişdir.

Bundan əlavə, iri həcmli kitabda yaradıcılığı XXI əsrə - Azərbaycanın müstəqilliyi dövrünə təsadüf edən gənc ifaçılar haqqında portretlər də öz əksini tapmışdır. Müxtəlif zamanda fəaliyyət göstərmiş sənətkarlar və hazırda onların ənənələrini layiqincə davam etdirən musiqiçilərin əsas məqsədi Azərbaycan musiqi sənətinin həm ölkəmizdə, həm də xaricdə təbliği işinə böyük töhfələr verməkdir.

Layihənin redaksiya heyəti: Fərhad Şəmsi oğlu Bədəlbəyli (sədr). Nərminə Quliyeva, Ülviyyə İmanova, Tariyel Məmmədov, Nəzmiyyə Abbaszadə, Nəzakət

---

[1] http://musbook.musigi-dunya.az/
[2] http://afrasiyab.musigi-dunya.az/
[3] http://lugat.musigi-dunya.az/

Rimazi, Leyla Məmmədova, tərtibçi və məsul redaktor: Gülzar Mahmudova, elmi redaktorlar: Könül Nəsirova, Cəmilə Həsənova, İnna Pazıçeva ibarətdir.

Bu layihədə həyat və yaradıcılığı işıqlandırılan görkəmli musiqi ifaçıları - öz peşəsinin əsl ustadları olub, çətin yol keçmiş, incəsənət naminə yaşayaraq, onu dərindən sevərək, fəaliyyətləri ilə əsl sənət zirvələrini fəth etmişlər və onların ifaçılığı incəsənətə çevrilmişdir. Onların hər biri Azərbaycanın musiqi təhsilində və mədəniyyətində zəngin ənənələrin yaranması və inkişafının 100 illik tarixində özünəməxsus rol oynamışdır. Bu sənətkarların yorulmaz fəaliyyəti sayəsində bu gün bizim Alma Mater, beynəlxalq standartlara cavab verərək, XXI əsrin Musiqi Akademiyası statusunu qazanmış, eyni zamanda, dahi Üzeyir Hacıbəylinin ənənələrini sədaqətlə və qayğıkeşliklə qorumuşlar.

Bütün bu görülən, həyata keçiriləcək layihə və tədbirlər siyahısı davam etməkdədir. Beləliklə, ilk dəfə olaraq Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş elmi nəşrlər arasında BMA-nın yaranmasının 100 illik tarixi ilə bağlı əhəmiyyətli faktların toplandığı nəşr də işıq üzü görməkdədir. Bu layihədə Azərbaycan musiqi mədəniyyəti tarixində baş vermiş ən önəmli hadisələr toplanaraq Bakı Musiqi Akademiyasının yarandığı gündən bu günə kimi keçdiyi tarixi yolu əks etdirəcəkdir.

Silsiləvi tədbirlərin ardı-arası kəsilmir. Əzəmətli və tarixi yol keçmiş bu ocağın qalın divarları arasında hələ neçə musiqiçi nəsli yetişəcək, mötəbər hadisələrə ev sahibliyi edəcəkdir, Azərbaycan bəstəkarları və musiqiçiləri musiqi mədəniyyətimizin hər sahəsində əldə etdikləri müvəffəqiyyətlərdə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin misilsiz əməyini hiss edərək onun əziz xatirəsini öz qəlblərində böyük hörmət və dərin məhəbbət hissi ilə yaşadacaqdır.



## ƏDƏBİYYAT


1. Bədəlbəyli Ə. “İzahlı monoqrafik musiqi lüğəti”. B.:2017
2. Hacıbəyov Ü. “Azərbaycan xalq musiqisinin əsasları”. B.:2019


**Saytoqrafiya:**


1. http://afrasiyab.musigi-dunya.az/
2. http://lugat.musigi-dunya.az/
3. http://musbook.musigi-dunya.az/
4. http://uzeyir.musigi-dunya.az/



*100 лет назад была написана золотая страница в истории азербайджанского народа и на стыке традиций Востока и Запада была создана Бакинская Музыкальная Академия. В статье представлены научные публикации, посвящённые 100-летию Бакинской Музыкальной Академии.*



***Ключевые слова:*** *Бакинская Музыкальная Академия, 100 лет, Узеир Гаджибейли.*



*100 years ago, a golden page was inscribed in the history of the Azerbaijani nation, and the Baku Music Academy was established at the junction of the traditions of the East and West. This article contains scientific publications dedicated to the 100th anniversary of Baku Music Academy.*



***Keywords:*** *Baku Music Academy, 100 years, Uzeyir Hajibeyli.*



Elmi rəhbər: BMA-nın professoru, sənətşünaslıq üzrə elmlər doktoru ***Tariyel Məmmədov***